**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ**

**imtahan iştirakçısının**

# YADDAŞ KİTABÇASI

**(musiqi sənəti istiqaməti üzrə nəzəriyyə fənləri üzrə test imtahanlarına dair)**

Aşağıdakıları imtahana gətirmək qadağandır:








İmtahan binasına giriş zamanı üzərində mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, konspekt və başqa yardımçı vasitələr aşkar olunan iştirakçılar barədə akt tərtib olunur, bu vasitələr və onların imtahan sənədləri götürülür və onlar imtahan binasına buraxılmırlar.

2024

## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

1. İmtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlin.
2. Özünüzlə mütləq qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələm və (və ya) HB sərtliyində sadə karandaş, qələmyonan, pozan və aşağıdakı sənədləri gətirin:
   - **şəxsiyyət vəsiqəsi,**
   - **imtahana buraxılış vərəqəsi**
3. **İştirakçı aşağıdakı hallarda imtahana buraxılmır:**
   - tələb olunan sənədlərdən hər hansı biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmış gəldikdə;
   - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.
4. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.

## İMTAHAN İŞTİRAKÇISININ İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR:

5. İmtahan zalında imtahana buraxılış vərəqəsində göstərilən sıra və yerdə oturduqdan sonra nəzarətçinin izahatını diqqətlə dinləyin. Aydın olmadıqda əlinizi qaldırıb nəzarətçiyə müraciət edin.
6. Nəzarətçinin imtahanda davranış qaydaları və texnoloji tələblərlə bağlı izahat işi qurtardıqdan sonra sizə cavab kartı paylanır. Cavab kartını qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələmlə və ya sadə karandaşla doldurun. Cavab kartındakı məlumatlar optik qurğu vasitəsilə oxunur. Ona görə də cavab kartı ilə işləyərkən ehtiyatlı olun. Dairələri tam qaralayın (nümunə:●), kartın əks üzünün qabarmaması üçün qələmi bərk basmayın. Kartı əzmək, ləkələmək, zədələmək və cırmaq olmaz.

**DİQQƏT!** Korlanmış cavab kartı dəyişdirilmir.

7. Cavab kartının **1-ci bölməsində** iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap edilmişdir. Özünüz haqqında çap edilmiş həmin məlumatları yoxlayın. Uyğunsuzluq aşkar etdikdə mütləq nəzarətçiyə müraciət edin. **2-ci bölmədə** iş nömrənizin hər bir rəqəmini ardıcıl olaraq damalara yazın, hər bir damanın altındakı sütunda uyğun rəqəmi tapıb, onun yerləşdiyi dairəni qaralayın. Bu zaman diqqətli olun: hər sütunda yalnız bir dairə qaralanmalıdır. **3-cü bölmədə** özünüz haqqında məlumatları yazın və qaydalara zidd hərəkətə yol verməyəcəyiniz barədə bu bölmədəki bəyannamə ilə tanış olun. Cavab kartında yazdığınız məlumatların düzgünlüyünü və bəyannamə ilə tanış olduğunuzu imzanızla təsdiq edin. **4-cü bölmədə** sizə veriləcək sual kitabçasının variantı çap edilir.
8. Bundan sonra sizə sual kitabçası təqdim olunur. Sual kitabçasının ön üzündə imtahan verəcəyiniz fənnin adı (“harmoniya və solfecio” və ya “musiqi nəzəriyyəsi və solfecio”), iş nömrəniz, soyadınız, adınız, atanızın adı, variantınız və zalınızın kodu çap edilmişdir.

**DİQQƏT!** Təqdim olunan sual kitabçası sizə məxsus deyilsə və ya cavab kartınızda göstərilmiş varianta uyğun olmazsa, dərhal nəzarətçiyə müraciət edin. Çünki imtahan nəticələriniz qiymətləndirilərkən cavablarınız cavab kartında göstərilmiş varianta uyğun və üzərində sizin soyadınız, adınız və ata adınız çap edilmiş sual kitabçasının doğru cavabları ilə müqayisə ediləcəkdir. Odur ki, sual kitabçasının sizə məxsus olduğundan əmin olun.

9. Sual kitabçasının ön üzündəki **bəyannaməni imzalayın.** Nəzarətçi sual kitabçasını açmağa icazə verdikdən sonra onu vərəqləyərək çap qüsurlarının olub-olmadığını yoxlayın. Bu cür qüsurlar olarsa, onların aradan qaldırılması üçün nəzarətçiyə müraciət edin. Çap qüsuru yoxdursa, kitabçanı yenidən örtün.
10. Nəzarətçi nəzərdə tutulan vaxtda sual kitabçalarını açmağa icazə verir, dinləmə üzrə tapşırıqların olduğu audioqurğunu işə salır və “İmtahan başlandı!” elan edir.
11. İmtahanda dinləmə üzrə tapşırıqların (“Harmoniya və solfecio” fənni üzrə 1-5-ci, “Musiqi nəzəriyyəsi və solfecio” fənni üzrə 1-5-ci, “Harmoniya və solfecio” və “Musiqi nəzəriyyəsi və solfecio” fənləri üzrə birgə imtahanda “Harmoniya və solfecio” fənni üzrə 1-5-ci, “Musiqi nəzəriyyəsi və solfecio”

fənni üzrə isə 31-35-ci tapşırıqlar) hər biri üzrə bir dinləmə materialı təqdim olunur. Hər bir tapşırıq üzrə dinləmə materialı zalda 2 dəfə, arada 10 saniyəlik fasilə olmaqla səsləndirilir. Dinləmə materialı 2-ci dəfə səsləndirildikdə tapşırığın şərti səsləndirilmir. Hər bir tapşırıq üzrə dinləmə materialının 2-ci dəfə səsləndirilməsindən 30 saniyə sonra növbəti tapşırıq üzrə dinləmə materialının səsləndirilməsinə keçilir. Dinləmə üzrə son tapşırıq üzrə dinləmə materialı 2-ci dəfə səsləndirildikdən sonra iştirakçılar dinləmə üzrə tapşırıqlarla yanaşı digər tapşırıqları cavablandırırlar.

Hər tapşırıq üzrə dinləmə materialının zalda 2 dəfədən az və ya çox səsləndirilməsi qadağandır.

12. “Harmoniya və solfecio”, “Musiqi nəzəriyyəsi və solfecio” fənlərinin hər biri üzrə iştirakçılara 30 qapalı tipli tapşırıq təqdim olunur. Təqdim olunan qapalı tipli test tapşırıqlarında 5 cavab bəndindən (A, B, C, D, E) istifadə olunur. Düzgün hesab etdiyiniz cavab variantını seçin, cavab kartında müvafiq test tapşırığının nömrəsini tapın və nömrənin qarşısında seçdiyiniz cavab variantına uyğun olan dairəni tam qaralayın. Əgər bir suala cavab olaraq birdən çox dairə qaralanarsa, həmin cavab səhv hesab edilir.
13. Harmoniya və solfecio fənni üzrə imtahanın müddəti 1 saat 30 dəqiqədir.
14. Musiqi nəzəriyyəsi və solfecio fənni üzrə imtahanın müddəti 1 saatdır.
15. “İmtahan başlandı!” elan edilən andan suallara cavab vermək üçün ayrılan vaxtdan səmərəli istifadə edin. Cavabların cavab kartında qeyd olunması üçün sərf olunan vaxt da imtahan müddətinə daxildir.
16. Ballarınız hesablanarkən yalnız cavab kartında qeyd etdiyiniz cavablar nəzərə alınır. Sual kitabçasında etdiyiniz qeydlər heç bir hüquqi əhəmiyyət daşımır. Bütün fənlər üzrə tapşırıqlar üzrə hər düzgün cavab 1 (bir) balla qiymətləndirilir. Səhv cavabların nəticələri düzgün cavablara təsir göstərmir. Hər bir fənn üzrə toplanıla bilən maksimal bal 30-dur.

**DİQQƏT!** Başqasının cavablarını köçürməyin. Özünüz də diqqətli olun ki, sizin cavablarınızı heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edilərsə, həm köçürənin, həm də köçürməyə şərait yaradanın imtahan nəticələri ləğv olunacaqdır.

**DİQQƏT!** İmtahanın gedişi zamanı hər bir iştirakçı öz cavab kartının və sual kitabçasının qorunmasına və korlanmamasına görə şəxsən məsuliyyət daşıyır.

17. Hesablamaları və qeydləri aparmaq üçün sual kitabçasında boş yerlər nəzərdə tutulmuşdur. Buna görə də əlavə kağızdan istifadə etməyə icazə verilmir.
18. Yalnız musiqi nəzəriyyəsi və solfecio fənni üzrə keçirilən imtahanda “imtahan başlandı” elan olunduqdan “imtahan qurtardı” elan olunanadək imtahandan çıxmaq qadağandır.
19. Harmoniya və solfecio fənni üzrə imtahanda və “Harmoniya və solfecio” və “Musiqi nəzəriyyəsi və solfecio” fənləri üzrə birgə imtahanda imtahanın başlanmasından **1 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində** imtahan zalından çıxmaq qadağandır.
20. İmtahandan çıxan iştirakçılar cavab kartı ilə birlikdə sual kitabçasını da nəzarətçiyə təhvil verməlidir.
21. Cavab kartının və sual kitabçasının təhvil verilməsinə görə siz şəxsən məsuliyyət daşıyırsınız. Cavab kartını və sual kitabçasını təhvil verdikdən sonra imtahana buraxılış vərəqəsində nəzarətçiyə imza etdirməlisiniz. Cavab kartını və sual kitabçasını nəzarətçiyə təhvil verməsəniz, imtahan nəticələriniz ləğv olunacaqdır.
22. Siz cavab kartlarının zərfə qoyularaq bağlanmasında iştirak edib, zərfin üzərindəki aktı imzalaya bilərsiniz.

## İMTAHAN İŞTİRAKÇISINA QADAĞANDIR:

- imtahana öz yerinə başqasını göndərmək;
- imtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

**DİQQƏT!** İştirakçının imtahan binasına qadağan edilmiş vasitə, vəsait və ya əşya keçirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.

**DİQQƏT!** Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.

- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə yemək, içmək (şəffaf plastik qabda qazsız, içməli su istisna olmaqla), saqqız, siqaret gətirmək;

- sual kitabçaları paylandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq, zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqasının cavab kartına, sual kitabçasına baxmaq və ya öz cavab kartına, sual kitabçasına başqasının baxması üçün şərait yaratmaq;
- nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün müraciət etmək;
- yalnız musiqi nəzəriyyəsi və solfecio fənni üzrə keçirilən imtahanda "imtahan başlandı" elan oldunduqdan "imtahan qurtardı" elan olunanadək imtahandan çıxmaq;
- "harmoniya və solfecio" fənni üzrə imtahanda və "harmoniya və solfecio" və "musiqi nəzəriyyəsi və solfecio" fənləri üzrə birgə imtahanda imtahanın başlanmasından **1 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində** imtahan zalından çıxmaq;
- cavab kartını və sual kitabçasını nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

**DİQQƏT!** İştirakçının göstərilən hərəkətlərə yol verməsi halları aşkar edildikdə o, imtahandan xaric olunur və onun imtahan nəticələri DİM tərəfindən ləğv olunur.

DİM iştirakçının imtahan qaydalarına zidd hərəkətini imtahandan sonra da aşkar etmək üçün müxtəlif üsullardan istifadə edir.

Əgər Siz imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi ölçü götürməzsə, imtahan rəhbərinin və ya DİM-in nümayəndəsinin zala gəlməsini tələb edin.

Nəzarətçi müəllimlər qeyri-fənn müəllimləridir. Onların vəzifəsi imtahanın gedişi zamanı nizam-intizam yaratmaqdır. İmtahanın başlandığı elan edildikdən sonra Sizin onlara sual verməniz, onların sizə yaxınlaşıb hər hansı bir məlumat almaq üçün müraciət etməsi imtahan qaydalarına ziddir.

Nəzarətçi müəllimlərin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin. Siz imtahan binasından çıxdıqdan sonra imtahanın gedişi ilə əlaqədar şikayətlərinizə baxılmayacaqdır.

**Sizə müvəffəqiyyətlər arzulayırıq!**